# Ulu öndər Heydər Əliyevin demokratik və hüquqi islahatlar kursu uğurla davam edir

**Azərbaycanın demokratik, hüquqi, dünyəvi dövlət kimi tanınmasında ümummilli lider Heydər Əliyevin xidmətləri böyükdür. Müasir müstəqil Azərbaycan dövləti dahi şəxsiyyətin şah əsəridir. Bu gün xalqımız Ulu Öndərin əziz xatirəsini ehtiramla yad edir.**



Ümummilli Liderin dövlətimiz, xalqımız qarşısındakı xidmətlərindən bəhs edərkən ilk olaraq göz önünə xilaskarlıq missiyası gəlir. Ötən əsrin 90-cı illərinin əvvəllərində, müstəqilliyin bərpasının ilk illərində Azərbaycan böyük və çətin sınaqlarla üzüzə qalmışdı, müstəqilliyini itirmək, dünyanın siyasi xəritəsindən silinmək təhlükəsini yaşayırdı. Ölkədə xaos, anarxiya, özbaşınalıq, iqtisadi tənəzzül baş alıb gedir, torpaqlarımız bir-birinin ardınca işğal olunurdu. Xalqın sabaha ümidi yox idi. Belə çətin dövrdə ulu öndər Heydər Əliyev xalqın səsinə səs verdi, hakimiyyətə qayıdışı ilə Azərbaycanın tarixində yeni bir mərhələninin başlanğıcını qoydu.

1993-cü ildə xalqın təkidli tələbi ilə hakimiyyətə qayıdan ulu öndər Heydər Əliyev öncə daxildə sabitliyin yaradılmasına diqqət göstərdi. Onun düşünülmüş və məqsədyönlü siyasəti nəticəsində Azərbaycan qısa müddətdə sabitlik məkanına çevrildi. Dövlətçiliyimizin əsasları yaradıldı. Dövlət müstəqilliyimizin daha da möhkəmləndirilməsi istiqamətində biri-birindən vacib addımlar atıldı. Ulu öndər Heydər Əliyev müstəqilliyin qorunmasının onun əldə olunmasından da çətin olduğunu önə çəkərək bildirmişdir ki, suverenliyimizi daimi yaşatmaq, dövlət müstəqilliyimizi əbədi etmək üçün harada yaşamasından asılı olmayaraq bu gün hər bir azərbaycanlıdan müqəddəs Azərbaycan qayəsi ətrafında əməl və əqidə birliyi, sarsılmaz həmrəylik tələb olunur.

İllər keçdikcə ölkəmizdə həyatın bütün sahələri inkişaf etməyə başladı, mühüm islahatlar həyata keçirildi. Bu mühüm məqamı xüsusi qeyd etməliyik ki. Azərbaycan xalqı öz təbii sərvətlərinin əsl sahibinə çevrildi. Ümummilli Lider iqtisadiyyatın inkişafında neft amilinə xüsusi önəm verməklə bugünkü inkişafın əsasını qoydu. Onun müəllifi olduğu neft strategiyasının uğurlu icrası nəticəsində Azərbaycanın iqtisadi və siyasi mövqeyi daha da möhkəmləndi. 1994-cü il sentyabrın 20-də tarixə "Əsrin müqaviləsi" kimi daxil olan neft sazişinin imzalanması ilə Azərbaycanın qarşısında geniş üfüqlər açıldı. Bir sözlə, ulu öndər Heydər Əliyev xalqın inamını doğruldaraq, möhkəm siyasi iradəsi, uzaqgörənliyi ilə ölkəni düşdüyü ağır vəziyyətdən çıxardı və Azərbaycan yeni inkişaf mərhələsinə qədəm qoyaraq biri-birindən əhəmiyyətli uğurlara imza atdı.

Ümummilli Lider iqtisadi və siyasi islahatların vəhdətinin qorunmasını qarşıya mühüm vəzifə kimi qoydu. Onun hüquqi, demokratik, dünyəvi dövlət quruculuğu istiqamətində gördüyü işləri xüsusi vurğulamaq istərdik. Təbii ki, yenicə müstəqillik əldə etmiş bir dövlətin inkişafında mükəmməl qanunvericilik bazasının yaradılması, qanunun aliliyinin təmin edilməsi mühüm şərt idi. "Azərbaycan Respublikasında demokratik, hüquqi dövlət qurulmalıdır. Azərbaycan dövləti demokratik prinsiplər əsasında fəaliyyət göstərməlidir, öz tarixi, milli ənənələrindən bəhrələnərək, dünya demokratiyasından, ümumbəşəri dəyərlərdən səmərəli istifadə edərək demokratik dövlət quruculuğu yolu ilə getməlidir" deyən ulu öndər Heydər Əliyevin rəhbərliyi ilə zaman keçdikcə bu sahədə böyük uğurlar əldə olunmağa başlandı. İlk öncə gündəmdə duran əsas vəzifə dövlətin Ana Qanunu-milli Konstitusiyamızın qəbul edilməsi idi. Ümummilli Lider yeni Konstitusiya layihəsinin hazırlanmasını öz üzərinə götürdü və bununla bağlı xüsusi yaradılmış Komissiyaya şəxsən rəhbərlik etdi. 1995-ci ilin noyabrında isə ümumxalq səsverməsi yolu ilə Konstitusiyamız qəbul edildi. Həmin tarixi günlərdə ulu öndər Heydər Əliyev deyirdi: **"Komissiyanın sədri kimi mən bu böyük tarixi sənədin hazırlanmasında öz şəxsi məsuliyyətimi daim dərk etmişəm, bu gün də dərk edirəm. Ona görə də bu sənədin hazırlanmasına xeyli vaxt sərf etmişəm. Haqqım var deyəm ki, çox zəhmət çəkmişəm. Hər bir kəlmənin, hər bir sözün mənasını dəfələrlə araşdırmışam, onun bu gün üçün, gələcək üçün nə qədər əsaslı olmasını dəfələrlə təhlil etmişəm. Mən çox rahatlıq hissi ilə bu layihənin altından imza atıram və bu layihəyə görə tam cavabdeh olduğumu bu gün bəyan edirəm. Hesab edirəm ki, biz Azərbaycanın bu günü, gələcəyi üçün çox böyük bir sənəd - siyasi, hüquqi sənəd yaratmışıq."**

Zaman keçdikcə yeni Konstitusiyamıza uyğun olaraq Azərbaycanda zəngin qanunvericilik bazası, mükəmməl hüquq sistemi formalaşdırıldı. İnsan hüquq və azadlıqlarının qorunmasını dövlət siyasətinin əsası kimi önə çəkən ulu öndər Heydər Əliyevin bilavasitə rəhbərliyi ilə işlənib hazırlanan və referendum yolu ilə qəbul olunan ali qanunumuzda əksini tapan maddələrin üçdəiki hissəsi insan amilinə dəyəri özündə ehtiva edir. "Konstitusiya Məhkəməsi haqqında", "Məhkəmələr və hakimlər haqqında", "Prokurorluq haqqında", "Polis haqqında", "Əməliyyat-axtarış fəaliyyəti haqqında" və digər qanunlar, əsas məcəllələrin layihələri hazırlanaraq qəbul edildi. Ümummilli lider Heydər Əliyevin 1998-ci ildə imzaladığı "İnsan və vətəndaş hüquqlarının və azadlıqlarının təmin edilməsi sahəsində tədbirlər haqqında" Fərmanla ölkəmizdə insan hüquq və azadlıqlarının ən yüksək səviyyədə təmin edilməsində növbəti addım atıldı. 1998-ci ildə Şərqdə ilk dəfə Azərbaycanda ölüm hökmünün tamamilə ləğv edilməsi ulu öndər Heydər Əliyevin humanist dəyərlərə nə qədər böyük dəyər verdiyinin göstəricisi idi. Bu mühüm qərar bir daha onu sübut etdi ki, Azərbaycan demokratik dəyərlərə sadiqdir. Həyata keçirilən humanist siyasət nəticəsində minlərlə məhkumun əfv və amnistiya olunması isə bir daha bu reallığı ortaya qoyurdu ki, dövlət siyasətinin mərkəzində insan amili dayanır.



**Akif Eyvazov,**
*Şəki Apelyasiya Məhkəməsinin Cinayət kollegiyasının sədri*

Azərbaycanda müstəqil məhkəmə hakimiyyətinin formalaşması ümummilli lider Heydər Əliyevin xüsusi diqqət mərkəzində olub. Konstitusiyanın qəbulu ilə məhkəmə hakimiyyəti dövlət hakimiyyətinin müstəqil qolunun bütün atributlarını, hüquqi dövlətin prinsip və vəzifələrinə uyğun olaraq qanunverici və icra hakimiyyəti ilə eyni statusu qazandı. Ulu Öndərin təşəbbüsü ilə 1997-ci ildə "Məhkəmələr və hakimlər haqqında" yeni Qanun qəbul edildi. Qanunun tətbiq edilməsi və məhkəmə islahatlarının həyata keçirilməsinə dair Fərman imzalandı. Ümummilli Liderimizin rəhbərliyi ilə aparılan əsaslı məhkəmə-hüquq islahatları nəticəsində keçmiş yeni, üçpilləli müstəqil məhkəmə sistemi formalaşdırıldı. 1998-ci ildə Azərbaycan Respublikası Prezidenti yanında məhkəmələrin təşkil edilməsi, hakim vəzifəsinə namizədlərin seçilməsi, habelə məhkəmələr və hakimlərlə bağlı digər məsələləri öz səlahiyyətləri dairəsində həyata keçirmək vəzifələrini yerinə yetirən Məhkəmə-Hüquq Şurası təsis olundu.

Demokratik prinsiplərə sadiqliyini sözdə deyil əməldə sübut edən Azərbaycan 2001-ci ilin yanvarında dünyanın ən nüfuzlu təşkilatlarından olan Avropa Şurasına tamhüquqlu üzv qəbul olundu və 19 illik yol bu münasibətlərin inkişaf səviyyəsinə işıq salır. Azərbaycanın quruma üzv qəbul olunma yolunun heç də hamar olmadığı məlumdur. Ölkəmizin müstəqilliyini, demokratik inkişafını həzm etməyə qüvvələr hər vəchlə Azərbaycanın Avropa Şurasına üzv qəbul olmasına mane olmağa çalışırdılar. Lakin ulu öndər Heydər Əliyevin səyləri nəticəsində bütün bu manelər dəf olundu, Azərbaycan Avropa Şurasına tamhüquqlu üzv qəbul olunmaqla demokratik inkişaf tarixinə yeni bir səhifə yazdı.

Son 16 ildən artıq dövrdə ulu öndər Heydər Əliyevin siyasi kursunu bütün istiqamətlərdə uğurla davam etdirən möhtərəm Prezidentimiz İlham Əliyevin rəhbərliyi ilə demokratik islahatlar daha da təkmilləşdirilmiş, Azərbaycanın bu sahədə də təcrübəsi nümunə göstərilir. Ali Qanunumuzun qəbulundan ötən 24 ildən artıq dövrdə sənədə ədavə və dəyişikliklərin edilməsi məqsədilə 2 dəfə ümumxalq səsverməsinin keçirilməsi də insan amilinə dəyərin bariz nümunəsidir.

Cənab İlham Əliyevin təşəbbüsü ilə məhkəmə sisteminin daha da müasirləşdirilərək Avropa standartlarına uyğunlaşdırılmasına başlanıldı. Bir çox mühüm islahatlarla yanaşı, yeni hakimlərin çoxmərhələli imtahanlardan, tədris və stajkeçmədən ibarət olan seçimləri xüsusi şəffaflığına və obyektivliyinə görə Avropa Şurası və Avropa İttifaqı tərəfindən yüksək dəyərləndirildi. Zaman keçdikcə yeni regional məhkəmə, apellyasiya məhkəmələri və inzibati ədliyyə sistemi yaradıldı, hakimlərin sayı bir neçə dəfə artırıldı, məhkəmə infrastrukturunun müasirləşdirilməsi istiqamətində mühüm tədbirlər həyata keçirildi.

Möhtərəm Prezidentimiz İlham Əliyevin məhkəmə sisteminin daha da təkmilləşdirilməsi istiqamətində həyata keçirdiyi tədbirlərin davamı olaraq imzaladığı "Məhkəmə-hüquq sistemində islahatların dərinləşdirilməsi haqqında" Fərmanı xüsusi olaraq vurğulamaq lazımdır. Sənəddə qeyd edilir ki, ölkəmizin davamlı tərəqqisinin təmin edilməsi üçün bütün sahələrdə həyata keçirilən islahatlar məhkəmə-hüquq sisteminin inkişafında yeni mərhələnin başlanmasını və bu sahədə islahatların dərinləşdirilməsini zəruri edir. Müasir dövrün tələblərinə cavab verən, cəmiyyətdə yüksək nüfuza malik ədalət mühakiməsinin formalaşdırılması prosesini sürətləndirmək məqsədilə məhkəməyə müraciət imkanları daha da genişləndirilməli, məhkəmələrin fəaliyyətində şəffaflıq artırılmalı, məhkəmə icraatının effektivliyi yüksəldilməli, məhkəmə qərarlarının tam və vaxtında icra edilməsi təmin olunmalı, süründürməçiliyin və digər neqativ halların aradan qaldırılması üçün görülən tədbirlər gücləndirilməlidir. Eyni zamanda, ədalət mühakiməsi mexanizmlərinin effektiv fəaliyyətinin təmin edilməsi üçün hakim və məhkəmə aparatı işçilərinin sosial müdafiəsi daha da yaxşılaşdırılmalı, müvafiq infrastrukturun yenilənməsi işləri davam etdirilməli, məhkəmə icraatında müasir informasiya texnologiyalarının tətbiqinin üstünlüklərindən hərtərəfli istifadə edilməli, digər mühüm məsələlər həll olunmalıdır. Fərmandan irəli gələn həllivacib məqamlarla bağlı mühüm tədbirlər görülüb. Təbii ki, bu istiqamətdə həyata keçirilən islahatlar bundan sonra da davam etdiriləcək. Azərbaycanda hüquq sisteminin və ədalət mühakiməsinin səmərəliliyinin daha da artırılması istiqamətində qanunvericilik və institusional islahatlar təkmilləşdirilir.